**AZƏRBAYCAN RESPUBLİKASI**

# TƏHSİL NAZİRLİYİ

*№ 46-03-5854/16*

*« 15 » 08 2008 il*

**Tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq bütün ali və orta ixtisas təhsili müəssisələrinin rəhbərlərinə**

Bildiyiniz kimi, tabeliyindən və mülkiyyət formasından asılı olmayaraq respublikada fəaliyyət göstərən bütün təhsil müəssisələrinə tədris-metodiki rəhbərlik, təlim və tədris prosesinin keyfiyyətinə nəzarət Təhsil Nazirliyi tərəfindən həyata keçirilir. Ona görə də təhsilin keyfiyyətinə mənfi təsir göstərən bütün amillər Nazirliyin diqqət mərkəzindədir. Bunlardan biri də tələbələrin bir təhsil müəssisəsindən digərinə köçürülməsi ilə bağlıdır. Bu prosesdə şəffaflığı təmin etmək məqsədi ilə ötən müddət ərzində Təhsil Nazirliyi tərəfindən bir çox tədbirlər görülmüşdür. Belə ki, ali məktəb rəhbərlərinə xarici ölkələrdə təhsil alan tələbələrin respublikanın ali məktəblərinə köçürülmə və bərpası zamanı təqdim olunan təhsil sənədlərinin leqallaşdırılması (Nazirliyin 21.01.2004-cü il tarixli 46-03-274/16 №-li məktubu), köçürülmə məsələsinə baxılarkən mövcud əsasnaməyə uyğun tələb olunan sənədlərlə yanaşı tələbənin xarici pasportunun surəti və təhsil aldığı ölkədə müvəqqəti pasport qeydiyyatı haqqında sənədin tələb olunması (Nazirliyin 09.01.2007-ci il tarixli 46-03-43/17 №-li məktubu) və bu kimi digər tədbirlərin görülməsi tapşırılmışdır.

Lakin cari ildə Təhsil Nazirliyinə respublikanın ali məktəblərinə köçürülmək üçün təqdim edilən xarici ölkələrdə, xüsusən MDB ölkələrində təhsil alan tələbələrin sənədləri araşdırılarkən bir çox hallarda yenə də saxtalaşdırılmalara yol verildiyi məlum olmuşdur. Belə ki, köçürülmək istəyən tələbələrin əksəriyyəti TQDK-nın keçirdiyi imtahanlarda keçid balını toplamayan və yaxud ümumiyyətlə imtahanlarda iştirak etməyən, xarici pasportu olmayan, rus dilində danışmağı belə bacarmayan şəxslərdir. Onların təqdim etdikləri akademik arayışlar, orada olan imzalar, möhür və «apostil»lərin təsdiq olunması ilə bağlı ali məktəblərə və ya Rusiya Federasiyasının Təhsil Nazirliyinə müraciət edilərkən həmin sənədlərin bəzilərinin doğruluğu da təsdiq olunmamışdır. Xarici ölkələrə təhsil almağa gedən belə tələbələrin əsas məqsədi birinci kursu bitirəndən sonra Azərbaycan universitetlərinə köçürülməkdir. Göstərilən hallar üzrə Təhsil Nazirliyi tərəfindən

müvafiq fərdi araşdırmalar aparılmış, lazımi tədbirlər görülmüş və saxta sənədlər təqdim edənlərin ali məktəblərə köçürülməsinin qarşısı alınmışdır. Bununla yanaşı, sənədləri Nazirlikdə araşdırılıb köçürülməsinə razılıq verilməyən tələbələr yekun dövlət attestasiyasına buraxılmamışlar.

Eyni zamanda, imtahan sessiyaları zamanı Təhsil Nazirliyi tərəfindən aparılan monitorinqlər göstərmişdir ki, xarici ölkə ali məktəblərindən köçürülən tələbələr (dövlət xətti ilə təhsil alanlar istisna olmaqla) tədris planında nəzərdə tutulanları lazımi səviyyədə mənimsəyə bilmirlər ki, bu da təhsilin keyfiyyətinə öz mənfi təsirini göstərir.

Qeyd olunan neqativ halları aradan qaldırmaq və ali məktəblərdə təhsilin keyfiyyətini yüksəltmək məqsədi ilə Təhsil Nazirliyi xarici ölkələrdə dövlət xətti ilə təhsil almayan tələbələrin respublikanın ali məktəblərinə köçürülməsini müvəqqəti olaraq dayandırmağı qərara almışdır. Cari ildən bu qəbildən olan tələbələrin köçürülmə ilə bağlı ərizələrinə baxılmayacaqdır.

Hesab edirik ki, görüləcək bu tədbirlər təhsil müəssisələrində tədris prosesinin təşkilinə və təhsilin keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərəcəkdir.

**Misir Mərdanov**